**AZƏRBAYCAN RESPUBLİKASININ**

# NAZİRLƏR KABİNETİ

## Q Ə R A R

**№ 442**

**Bakı şəhəri, 12 oktyabr 2018-ci il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasına Azərbaycan Respublikasına gətirilən və ya Azərbaycan Respublikasından çıxarılan valyuta sərvətlərinə dair təqdim edilən məlumatların tərtib olunma forması"nın təsdiq edilməsi haqqında" 2009-cu il 28 iyul tarixli 112 nömrəli, "Aktivləri dondurulmuş fiziki və ya hüquqi şəxslərin zəruri və gözlənilməz xərclərə ehtiyaclarını ödəmək üçün dondurulmuş aktivlərdən istifadə etmək imkanının təmin edilməsi Qaydası"nın təsdiq edilməsi barədə" 2016-cı il 19 avqust tarixli 310 nömrəli və "Ləğv edilmiş Azərbaycan Respublikası Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin normativ hüquqi aktlarının və onların struktur elementlərinin, Azərbaycan Respublikasının Mərkəzi Bankı yanında Maliyyə Monitorinqi Xidmətinin normativ xarakterli aktlarının ləğv edilməsi barədə" 2017-ci il 7 iyul tarixli 277 nömrəli qərarlarında dəyişikliklər edilməsi haqqında**

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidmətinin yaradılması haqqında" 2018-ci il 25 may tarixli 95 nömrəli Fərmanının 5.3-cü bəndinin və "Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında" 2018-ci il 18 iyul tarixli 215 nömrəli Fərmanının 4.2-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

1. “Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasına Azərbaycan Respublikasına gətirilən və ya Azərbaycan Respublikasından çıxarılan valyuta sərvətlərinə dair təqdim edilən məlumatların tərtib olunma forması”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 28 iyul tarixli 112 nömrəli qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 7, maddə 608; 2016, № 8, maddə 1449; 2017, № 10, maddə 1884) aşağıdakı dəyişikliklər edilsin:

1.1. adında və 1-ci hissəsində “Maliyyə Bazarlarına Nəzarət Palatasına” sözləri “Maliyyə Monitorinqi Xidmətinə” sözləri ilə əvəz edilsin;

1.2. həmin qərarla təsdiq edilmiş “Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasına Azərbaycan Respublikasına gətirilən və ya Azərbaycan Respublikasından çıxarılan valyuta sərvətlərinə dair təqdim edilən məlumatların tərtib olunma forması” üzrə:

1.2.1. adında və 1-ci, 2-ci (hər iki halda), 3-6-cı hissələrində ismin müvafiq hallarında “Maliyyə Bazarlarına Nəzarət Palatası” sözləri ismin müvafiq hallarında “Maliyyə Monitorinqi Xidməti” sözləri ilə əvəz edilsin;

1.2.2. həmin formaya əlavə - “Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasına Azərbaycan Respublikasına gətirilən və ya Azərbaycan Respublikasından çıxarılan valyuta sərvətlərinə dair təqdim edilən məlumatların tərtib olunma formasının nümunəsi”nin adında “Maliyyə Bazarlarına Nəzarət Palatasına” sözləri “Maliyyə Monitorinqi Xidmətinə” sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 19 avqust tarixli 310 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 8, maddə 1447; 2017, № 8, maddə 1630) ilə təsdiq edilmiş “Aktivləri dondurulmuş fiziki və ya hüquqi şəxslərin zəruri və gözlənilməz xərclərə ehtiyaclarını ödəmək üçün dondurulmuş aktivlərdən istifadə etmək imkanının təmin edilməsi Qaydası”nın 3.2-ci bəndində “Maliyyə Bazarlarına Nəzarət Palatası” sözləri “Maliyyə Monitorinqi Xidməti” sözləri ilə əvəz edilsin.

3. “Ləğv edilmiş Azərbaycan Respublikası Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin normativ hüquqi aktlarının və onların struktur elementlərinin, Azərbaycan Respublikasının Mərkəzi Bankı yanında Maliyyə Monitorinqi Xidmətinin normativ xarakterli aktlarının ləğv edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin

2017-ci il 7 iyul tarixli 277 nömrəli qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 7, maddə 1475, № 11, maddə 2152) 2-ci hissəsinə "struktur elementləri" sözlərindən sonra "müvafiq olaraq" sözləri və "Palatasının" sözündən sonra "və Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidmətinin" sözləri əlavə edilsin.

**Azərbaycan Respublikasının**
**Baş naziri** **Novruz Məmmədov**